# Qardaşlıq töhfəsi

**6 fevral 2023-cü ildə qardaş Türkiyədə bas vermiş dəhşətli zəlzələ hamımızı dərindən sarsıtdı. Gecə saatlarında mərkəzi Qahramanmaraş olmaqla, müxtəlif vilayətlərdə baş verən yeraltı təkanlar nəticəsində minlərlə insan həyatını itirdi, on minlərlə insan yaralandı və dağıntılar altında qaldı.**



Türkiyənin cənub-şərqində baş verən zəlzələ 12 ballıq şkala ilə 7,7 bal gücündə olmuşdu. Bu zəlzələ nəticəsində Türkiyənin 10 şəhəri, əsasən, Qahramanmaraş, Elazığ, Şanlı Urfa, Adana, Hatay, Diyarbəkir, İsgəndərun və digər şəhərlərində yaşayış binaları dağıntıya məruz qaldı. Bu təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün bir çox ölkələr Türkiyəyə həm humanitar, həm də dağıntılar altında qalmış insanların çıxarılması üçün xilasedici qüvvələrini göndərirdilər.

Türkiyəyə kömək edən ilk ölkə qardaş Azərbaycan oldu. Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı, eləcə də dağıntılar ilə bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını və kədərləndirdiyini bildirdi. Dövlətimizin başçısı zəlzələ zamanı həlak olan insanlarla bağlı Türkiyə Prezidentinə, onların ailələrinə və qardaş Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı verdi, yaralananların tezliklə şəfa tapmasını dilədi.

Prezident İlham Əliyev fevralın 8-də Türkiyənin ölkəmizdəki səfirliyinə gedərək, qardaş ölkədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar böyük kədər hissilə başsağlığı verdi. Dövlətimizin başçısı Azərbaycanın hər zaman olduğu kimi, zəlzələdən sonra ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında olduğunu vurğuladı: "Azərbaycan öz dəstəyini, öz həmrəyliyini həmişə olduğu kimi nümayiş etdirir. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik".

Prezident İlham Əliyevin tapşırığına əsasən, Türkiyədə olan Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələri qardaş ölkədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirdilər. Xatırladaq ki, hər iki ölkəni tarixi, milli, dini və mədəni köklər bir-birinə sıx bağlayır. Qardaşlığımız Böyük Öndər Mustafa Kamal Atatürkün dediyi "Azərbaycanın kədəri - kədərimiz, sevinci - sevincimizdir" və Ümummilli Liderimiz Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fəlsəfəsinə əsaslanır.

2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində Qahramanmaraşda yaşayış binalarının, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikintisini nəzərdə tutan hökumətlərarası əməkdaşlıq Sazişi imzalandı. Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) "Azərbaycan" məhəlləsi layihəsi çərçivəsində ölkəmizin Nazirlər Kabinetinin icra orqanı kimi fəaliyyət göstərdi. Bərpa işləri Türkiyə hissəsi Dövlət Mənzil İnşaatı İdarəsi (TOKİ) tərəfindən həyata keçirildi. Kahramanmaraşın "Azərbaycan" məhəlləsində Heydər Əliyev adına ibtidai məktəbin təməli 2023-cü il aprelin 29-da Türkiyədə keçirilən TECHNOFEST festivalı zamanı qoyuldu. Tikinti işləri gündən-günə sürətləndi.

"Azərbaycan" məhəlləsində 1000 evin inşasını Azərbaycan öz öhdəsinə götürdü. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə təməli atılmış binaların inşası tamamlanmışdır. "Azərbaycan" məhəlləsində yaşayış yerləri ilə yanaşı, parkinqlər, məktəblər və sağlamlıq sahələri də var. Salınan geniş yaşıllıq zolaqları əraziyə xüsusi olaraq yaraşıq verir. Qəhramanmaraşın tam mərkəzində "Azərbaycan" məhəlləsinin inşa olunması iki ölkənin qardaşlığının daha bir bariz nümunəsidir. Burada Azərbaycan bulvarının və "Azərbaycan" məhəlləsinin salınması qardaş köməyinin əbədi rəmzinə çevriləcək.

Təsdiq edilmiş layihəyə əsasən, məhəllədə 68 yaşayış binasından əlavə, həmçinin ibtidai məktəb, uşaq bağçası, mədəniyyət evi də tikilib. "Azərbaycan" məhəlləsi istifadəyə veriləndən sonra burada 1596 pərakəndə satış obyekti də fəaliyyət göstərəcək. İki qardaş ölkə arasında daha bir dostluq və həmrəylik simvoluna çevrilmiş Kahramanmaraş şəhərinin "Azərbaycan" məhəlləsi artıq ilk sakinlərini qəbul etməyə hazırdır. Qahramanmaraş qonaqlarını bütün beynəlxalq standartlara cavab verən müasir yaşayış kompleksi ilə qarşılayır və minlərlə sakin rahat mənzillərə köçəcəkləri anı səbirsizliklə gözləyirlər.

6 fevral 2023-cü ildə Qahramanmaraş şəhərində baş vermiş güclü zəlzələdən zərər çəkmiş insanlar gündən-günə iqtisadi və siyasi gücünü, qüdrətini artıran ölkəmizin bu şəhərdə saldığı "Azərbaycan" məhəlləsinin açılışından sonra onlar üçün tikilmiş evlərdə Azərbaycana, Prezident İlham Əliyevə və xalqımıza dərin minnətdarlıq hissi ilə yaşayacaqlar. Onlar dövlət başçımızın və xalqımızın bu xeyirxahlığını heç vaxt unutmayacaqlar. Dövlətimizin atdığı bu addım Azərbaycan və Türkiyə arasındakı dostluq, qardaşlıq əlaqələrinə bundan sonra da böyük töhfələr verəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 15 iyun (№122).- S.2.